UOT 372.3/.4

***Gülnaz Xanlar qızı Əhmədova,***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN TƏLİMƏ MARAĞININ ARTIRILMASI

***Гульназ Ханлар кызы Ахмедова,***
*докторант по программе доктора философии*
*Азербайджанский Государственный Педагогический Университет*

# ПОВЫШЕНИЕ ИНТЕРЕСА УЧЕНИКОВ НАЧАЛЬНЫХ КЛАССОВ К ОБУЧЕНИЮ

***Gulnaz Khanlar Ahmadova,***
*doctorial student in the program of doctor of philosophy*
*Azerbaijan State Pedagogical University*

# INCREASİNG THE İNTEREST OF PRİMARY SCHOOL STUDENTS TO THE LEARNİNG

**Xülasə.** Müasir texnologiyalardan istifadə sadəcə dərsin planlaşdırılıb, tədris olunması deyil, eyni zamanda bu dövrün tələbidir. Bu gün hər bir müəllim təlim prosesinin təkmilləşdirilməsi və şagirdlərin öyrənməyə marağının artırılması üçün ən səmərəli yollar, üsullar və metodlar axtarır ki, təlim müddətində şagirdlərin fəallığına, onların müstəqil və yaradıcı fəaliyyətinə nail olsun. Təqdim olunan məqalədə ibtidai sinif şagirdlərinin təlimə marağın artırılması, onların müstəqil şəkildə bilik əldə edilməsi kimi məsələlərə diqqət yetirilir, həlli yolları araşdırılır.

***Açar sözlər:*** *fəal təlim, fərdi yanaşma, motivasiya, təlim metodları, innovativ texnologiya*

**Резюме.** Использование современных технологий - это не только запланированный и преподаваемый урок, но и требование этого периода. Сегодня каждый преподаватель ищет наиболее эффективные пути, методы и приемы для улучшения учебного процесса и повышения интереса учащихся к учебе, чтобы добиться активности учащихся, их самостоятельной и творческой активности во время обучения. В представленной статье рассматриваются такие вопросы, как повышение интереса учащихся начальных классов к обучению, их самостоятельное получение знаний, а также рассматриваются пути их решения.

***Ключевые слова:*** *активное обучение, индивидуальный подход, мотивация, методы обучения, инновационные технологии*

**Summary.** The use of modern technology is not only a planned taught of a lesson, but also a requirement of the current period. Today, every teacher is looking for the most effective ways, methods and techniques to improve the learning process and increase students interest in learning, in order to achieve students active involvement, independent and creative activity during the lesson. The presented article focuses on issues such as increasing the interest of primary school students in learning, their independent acquisition of knowledge, and looking for the solutions.

***Keywords:*** *active learning, individual approach, motivation, learning methods, innovative technology.*

Müasir müəllim tədris edən deyil,
o, bir uşağın necə öyrəndiyini
hiss edib başa düşəndir.

**L.S.Vıqotski**

Cəmiyyətin müasir təhsilə verdiyi tələblər ibtidai sinif müəllimlərindən təlim və təhsil nəticələrinə səbəb olacaq yeni tədris texnologiyalarını tədris prosesinə daxil etməyi zəruri edir. Təhsil prosesinin əsas vəzifələrdən biri şagirdlərin əsaslarını öyrəndiyi hər bir elm sahəsində yaradıcı təfəkkürünün inkişaf etdirməsidir. Dərs prosesində müasir tədris texnologiyalarının tətbiqi tədris prosesinin forma və vasitələrini şaxələndirməyə, şagirdlərin yaradıcılıq fəallığını ar-

tırmağa imkan verir. Texnologiyalardan məqsədyönlü və mütəmadi istifadə ibtidai sinif şagirdlərində idrak və yaradıcılıq qabiliyyətlərinin, eyni zamanda kollektivlə işləyə bilmə bacarıqlarının ortaya çıxmasına şərait yaradır. İbtidai sinif müəllimi şagirdləri təlimə cəlb etmək, onlarda maraq oyatmaq və öyrəndiklərini həyat təcrübələrində tətbiq edə bilmələri üçün dərsdə fərqli tədris strategiyaları nümayiş etdirməlidir. Bu, çox önəmli məsələdir. Bunun üçün bir sıra forma və metodlardan istifadə edilməsi zəruridir. Başlıca məsələlərdən biri təlim prosesində fərdi yanaşmanı təşkil edilməsidir. Bu prosesdə aşağıdakıların nəzərə alınmasını vacib hesab edirik:

– şagirdlərə müstəqillik və sərbəstlik verilməsi;

– yaradıcı, məntiqi düşüncə tərzinin inkişaf etdirilməsi;

– öyrəndiklərini ümumiləşdirə bilmə bacarıqlarının formalaşdırılması;

– qazandıqları bilikləri müqayisə edə bilməsi.

Təlimdə fərdi yanaşma formasının tətbiqi zamanı ibtidai sinif müəllimi şagirdi ilə birbaşa ünsiyyətə daxil olur, səhvləri hər zaman düzəldə bilir, uğurlarını yerində və zamanında qeyd etməsinə nail olur.

Müasir tədris texnologiyalardan istifadə fənlərin (riyaziyyat, Azərbaycan dili, həyat bilgisi və s.) tədrisini asanlaşdırmaq təlimdə anlama və yadda saxlama proseslərinin surətlənməsinə səbəb olan vasitələrdir. Təlim fəaliyyətində innovativ texnologiyalardan istifadə tədris prosesinin maraqlı, əyləncəli, interaktiv təşkil olunmasına səbəb olur. İbtidai sinifdə sinifdən-sinfə keçdikcə zehni yüklərinin artması ilə bir çox şagirdlər çətinliklərlə üzləşir elə bu səbəbdir ki, yeni biliklər əldə etməyə səy göstərmirlər. Yeni metod və texnologiyaların istifadəsi ilə şagird könüllü olaraq, həvəslə tədrisə qoşulur və öyrənməyə həvəs göstərirlər. Şagirdlərin keçirilən fənnə olan marağını formalaşdırrmaq üçün ibtidai sinif müəllimi şagirdi diqqət mərkəzində saxlamalı, keçirilən mövzunu aydın və rəngarəng izah etməli, dərsdə şagirdləri aktiv fəaliyyətə cəlb etməlidir.

İbtidai sinif şagirdlərinin dərsdə fəallığı həm psixoloji, həm pedaqoji istiqamətdə, həm də təhsil təcrübəsində aktual problemlərdən biridir. Bəzi ibtidai sinif şagirdlərinin bilikləri əldə etməyə qarşı biganəliyi, öyrənmək istəmədiklərini, idrak maraqlarının aşağı səviyyədə olmasını nəzərə alaraq müəllim dərs prosesində daha səmərəli formalar, modellər, üsullardan yararlanaraq faydalı təlim şəraiti yaratmağa çalışmalıdır. Görkəmli pedaqoq A.A.Verbitski qeyd edir ki, şagirdlərin işinə nəzarətin gücləndirilməsi, texniki vasitələrdən, kompüter texnologiyalarından düzgün istifadə təlim fəaliyyətinin fəallığına gətirib çıxarır. Təlim zamanı şagirdlərin fəallığı qarşıya qoyulan təlim məqsədlərinə nail olunmasına, şagirdlərin keçirilənlərin dərk etməsinə, anlamasına, tətbiq edə bilməsinə bir sözlə hərtərəfli inkişafına gətirib çıxarır. Təlimdə şagird fəallığının təmin edilməsi şagirdlərin fəaliyyətinin aktivləşdirilməsi məlumatın həcminin artırılması ilə deyil, dərsin düzgün təşkili, təlimdə psixoloji və didaktik şəraitin təmin edilməsindədir [5, S. 30].

Təlimdə fəallığın təmin edilməsi olduqca vacibdir. P.D. Rabinoviç, N.N. Salnikov, A.S. Tarasov və b., belə hesab edirlər ki, fəal təlim – şagirdlərin bilik, bacarıq, vərdişlər əldə etməsidir. Təlim zamanı istifadə olunan üsul, forma və vasitələr bu prosesi surətləndirir. Fəal təlimdə müəllim şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə almaqla onlarda tələb olunan motivasiya səviyyəsini gücləndirir. Tədris prosesini fəal təlim formasında təşkil edərkən müəllim ibtidai sinif şagirdinin idrak fəaliyyətini onun bilik, bacarıq və yaş səviyyəsinə uyğun istiqamətləndirməli və çalışmalıdır ki, şagirdlərdə dərsə, aparılan təşkil olunan tədqiqata maraqları artsın və təlim uğurla nəticələnsin. Fəal təlimə aşağıda göstərilənləri daxil etmək olar:

– empirik təlim;

– kompleks problemlərin yaradıcı həlli;

– birgə təlim vaxtı qrupun işi, dəstəyi;

– yaradıcı olması, səy göstərməklə müvafiq biliyin alınması.

Təlimdə ibtidai sinif şagirdinin fəallığının təzahürü yalnız onun məntiqi, idrak fəallığının səviyyəsini deyil, həm də onun şəxsiyyətinin özünəməxsusluğunu göstərir. Şagirdin təlim zamanı keçirilən materialla ilkin tanışlığı, onun qavranılması, dərk edilməsi, mənimsənilməsi və nəticədə tətbiqini 3 səviyyə şəklində göstərmək olar. Bunlar aşağıdakılardır:

Reproduksiya fəallığı – təhsilalanın öyrənilənі anlaması, yadda saxlaması və qazandıqları bilikləri təkrarlayıb tətbiq etməsi ilə səciyyələnir.

İnterperetasiya fəallığı – şagirdlərin materialın mənasını dərk etməsi, mənalarının arasında əlaqələri qura bilməsi, şəraitindən asılı olmayaraq öyrəndiyini tətbiq edə bilməsidir.

Yaradıcı fəallığı – təhsilalanın öyrəndiyini nəzəri cəhətdən dərk etməsi, qarşıya çıxan maneələrə, problemlərə müstəqil şəkildə çıxış yollarının axtarması və idrakı maraqlarının inkişaf etdirməsidir.

Hazırki təhsil sistemində şagird fəal təlim zamanı mərkəzdə duran subyektdir. Müəllim dərsi hazır bilik şəkildə çatdırmır, o, fənni, mövzunu mənimsəməsi, qavraması üçün şagirdləri fəal fəaliyyətə cəlb edir və nəticədə şagird təlim prosesinin fəal iştirakçısına çevrilir. Belə təşkil olunmuş təlim fəaliyyəti kollektivin işini də gücləndirir, şagirdlər tərəfindən mövzunun mənimsənilməsi istiqamətində aparılan planlaşdırma və problemlərin həlli gözlənilən nəticənin əldə olunmasına gətirib çıxarır.

Deyilənləri ümumiləşdirsək, fəal təlimin bir sıra üstünlüklərini aşağıdakı şəkildə qeyd edə bilərik:

– İbtidai sinif şagirdləri arasında eyni vaxtda baş verən yaradıcı öyrənmə və birgə fəaliyyət.

– şagirdlərinin özlərini ifadə edə bilmə, hər bir öyrənilən mövzuda öz fikirlərini kənar mülahizələrin olmasından çəkinmədən sərbəst deyə bilməsi (bu əsasən özünəqapalı şagirdlərin cəmiyyətdə özgüvənlərini formalaşmasına gətirib çıxaran əsas amillərdəndir).

– praktiki nəticənin qısa zaman ərzində görməyin mümkün olması.

Niyə bir çox şagird tədris materialını zəif öyrənir, dərsdə işləmək istəmir?

- ✓ Çünki tez-tez dərslər eyni tipdə, eyni quruluşdadır.
- ✓ Dərsdə aktiv olanlardan tez-tez soruşurlar.
- ✓ Səhv cavab vermək, səhv etmək, hətta gülünc görünmək üçün bir qorxu və ya maneə var.
- ✓ Şagirdlər arasında öyrənmə motivasiyasının aşağı olması və s.

Hər müəllim şagirdlərinin yaxşı oxumalarını, sinifdə və evdə maraq və istəklə təhsil almalarını təmin etməyə çalışır. Şagirdlərin valideynləri də bununla maraqlanırlar. Ancaq bəzən valideynlərdən təəssüf hissi ilə eşidirik: "oxumaq istəmir", "yaxşı ola bilər, amma istək yoxdur", "qabiliyyəti var, amma tənbəldir". Bu hallarda şagirdin biliyə ehtiyacı və öyrənməyə marağı olmadığı deyilir.

Motivasiya akademik uğurun açarıdır. Uşaqlarda təhsil motivasiyasının formalaşması çox böyük bir iş tələb edir. Uşağın öyrənmə qabiliyyətini, idrak maraqlarını və öyrənmək istəklərini inkişaf etdirmək lazımdır.

Motivasiyanın formalaşması, ilk növbədə, öyrənmə üçün daxili stimulların yaranması üçün şəraitin qurulmasıdır. Yüksək təşkil olunmuş motivasiya ilə şagird çətin bir problemi həll edərkən, özünə inamı artıran, yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirən, uğurları ilə qürur duyan şəxsiyyətə çevrilir.

Uşaqlarda təhsil motivasiyasının formalaşması və onlarda təlimə marağı artırmaq çox böyük bir iş tələb edir. Uşağın öyrənmə qabiliyyətini, idrak maraqlarını və öyrənmək istəklərini inkişaf etdirmək lazımdır. Keçirilən material əvvəllər əldə edilmiş biliklərlə nə qədər çox əlaqələndirilirsə, şagirdlər üçün də o qədər maraqlı olur. Öyrənmə çətin, lakin mümkün olmalıdır, buna görə düşündürücü və maraqlı tapşırıqlardan istifadə etmək lazımdır. Şagirdin işi nə qədər tez-tez yoxlanılır və qiymətləndirilirsə, o zaman şagird tapşırılan işə qarşı daha məsuliyyətlə yanaşır və onun üçün tapşırığı yerinə yetirmək də bir o qədər maraqlı olur. Dərsin müvəffəqiyyətli olmasının vacib elementi, həmçinin dərsdə müsbət psixoloji ab-hava və uğurlu dərs mühitinin yaradılmasıdır.

"Yaxşı müəllimlər qədər yaxşı metodlar var" - deyə dahi pedaqoqlardan biri demişdi ki, yaradıcı müəllim dərslərini şagirdlərin bilik əldə etməsi üçün maraqlı və əyləncəli edəndir.

Rus pedaqoqu Smirnov da ibtidai sinif şagirdinin təlimdə fəallığının artırılması, dərsin keyfiyyətli qurulması, keçirilənlərin tam olaraq şagirdlərə çatdırılmasının yolu motivasiyanın düzgün təşkil olunmasından asılı olduğunu qeyd etmişdir [5, s. 35]. Təcrübəli müəllim şagirdlərin daxili və xarici imkanlarını, eyni zamanda müəllim və şagird arasında əlaqələrinin düzgün qurulmasına da böyük əhəmiyyət verməlidir.

L.N. Tolstoy belə bir fikir irəli sürmüşdü, - "əgər məktəbdə şagird heç bir şeyi etməyi özü öyrənməyibsə, onda o yalnız bu həyatda hər bir şeyi təqlid edərək onun surətini çıxaracaq". [2, s.1]

İbtidai sinif şagirdinin təlim fəaliyyətinə cəlb edərkən onun təlim zamanı fəallaşdırılma-

sında əsas istiqamət verilən məlumatın həcmini artırılması deyil, şagirdlərə dərs zamanı nəzarətin gücləndirilməsi, təlim də didaktik və psixoloji şəraitin yaradılması, şagirdin intellektual, fərdi, sosial səviyyəsinin artırılmasındadır.

Bəzi rus pedaqoqlarından P.D. Rabinoviç, A.S. Tarasov və b. şagirdlərdə təlimə maraq oyatmaq onlarda bilik, bacarıq və vərdiş formalaşdırmaq üçün təlimdə istifadə olunan üsul, vasitə və forma, metodların rolunun əvəzolunmaz olduğunu bildirmişlər [5, s. 30]. Şagirdlərdə elmə, təhsilə marağın artırılması, uğurlu nəticəyə nail olmaq, təlimdə şagirdlərin fərdi xüsusiyyətlərinin və maraqlarının nəzərə alınmasına əsaslanır.

Hal-hazırki dövrün tələblərindən biri də dərsi planlaşdırarkən və təqdim edərkən şagirdlərin inkişaf dinamikasını, emosionallığını, gigiyena tələblərini (təmiz hava, yaxşı işıqlandırma, təmizlik), şagirdlərin psixoloji hallarının qarşısının alınması (tək, cüt, qrup halında işləmək üçün – seçim imkanı vermək) və dərsdə fiziki məşğələləri təşkil etməyi tələb edir.

Sağlam hərtərəfli inkişaf etmiş əqli və fiziki cəhətdən sağlam nəsil yetişdirmək, onlarda sağlamlığına məsuliyyətli yanaşmanın formalaşdırması zəruri şərtdir. Atalarımız belə deyib sağlam bədəndə sağlam ruh olar. Buna istinad etsək biz də dərslərimizdə rəqs və idman fasilələri, eşitmə və hərəkət gimnastikası, dərsin əsas mövzunu aşmamaqla oyunlar da təşkil etmək məqsədə uyğun olar. Əqli fəaliyyətdən sonra bədən əzələlərinin gərginliyinin çıxarılması üçün xüsusi məşğələlər, əl və barmaqların, göz əzələlərinin hərəkətə gətirilməsi, düzgün qamətin, nəfəsin formalaşdırılması üçün tapşırıqlar şagirdin dərsdə yorulmamasını təmin edir. Şagirdlərin fiziki fəaliyyətləri ilə zehni fəaliyyətləri arasında balans gözlənilməli yəni daim diqqət mərkəzində saxlanılmalıdır. Deməli təlim fəaliyyətində qarşıya qoyulan istənilən məqsədə çatmaq üçün şagirdin fiziki və zehni fəaliyyəti bərabər istiqamətdə aparılmalıdır bu zaman, bir fəaliyyətin digər fəaliyyətə nisbəti çox olmamalıdır. Əks təqdirdə istər məktəb rəhbərliyi, istər müəllim, istərsə də valideyn qarşıya qoyulmuş məqsədə (nəticəyə) nail olmayacaqdır. Buna əsasən əlavə qeyd etmək istərdim ki, müasir təlim ilk olaraq təhsilalanların sağlamlığına diqqət yönəltməli, təhsil aldıqları müddətdə onlara sağlam həyat tərzi aparmaq üçün lazimi biliklər aşılamalı və öyrəndiklərini həyatda tətbiq edə bilən hərtərəfli şəxsiyyət yetişdirməlidir.

**Problemin aktuallığı:** Məqalədə xüsusi diqqət yetirilən təhsildə İnnovativ texnologiyalar müəllimin peşəkar fəaliyyətində mühüm yer tutur. İnnovativ texnologiyalardan istifadə ibtidai sinif şagirdinin dərsdə sərbəst və məsuliyyətli olmasına, obyektiv və hərtərəfli düşünməsinə, məlumatları tapib, təhlil edərək yeni biliklər əldə etməsinə gətirib çıxarır.

**Problemin elmiliyi:** İbtidai siniflərdə yeni texnologiyaların tətbiqi idrak fəallığının, yaradıcılığının, kreativliyinin, informasiya ilə işləmək bacarığının inkişafına kömək edir, ən başlıcası isə, tədrisin keyfiyyətini artırır.

**Problemin praktik əhəmiyyəti :** Təlim zamanı istifadə edilən yeni metod, üsul və vasitələr təhsilalanlara yalnız bilik verməklə deyil, eyni zamanda onların elmə qarşı marağını, əqli qabiliyyətini, yaradıcı təfəkkürünü, intellektual keyfiyyətini inkişaf etdirir ki, bu da gələcəkdə onun daim biliklərə yiyələnərək, təcrübədə tətbiqini təmin edir. Bu baxımdan məqalədə göstərilən iş metodikasından praktik fəaliyyətdə istifadə edilməsi ibtidai siniflərdə şagirdlərdə təlim marağının yüksəldilməsinə əhəmiyyətli dərəcədə kömək edə bilər.

**Ədəbiyyat:**

1. Kazımov N.M. Məktəb pedaqogikası. Bakı: Çıraq, 2011, 440 s.
2.https://tolstoyschool.com/pedagogicheskaja-dejatelnost-tolstogo/pedagogicheskie-vozzrenija.html
3. Nəbiyeva Ş. Məktəb və intellekt tərbiyəsi. Bakı, s.177
4. Толстой Л. Н. Педагогические сочинения. М., 1989, 544 с.
5.http://www.turisty.lpy.by/uploads/b1/s/6/789/basic/116/756/Aktivnyie_metodyi_obucheniya.pdf?t=1539305204

**E-mail:** gulnaz.ahmedova.84@mail.ru

**Rəyçi:** *ped.ü.elm.dok., prof.* **M.İ. İlyasov**

**Redaksiyaya daxil olub:** 14.01.2021